# Şimali Makedoniyanın Baş naziri YAP-ın nümayəndə heyətini qəbul edib

**Şimali Makedoniya Respublikasının Baş naziri Dimitar Kovaçevski Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



Yeni Azərbaycan Partiyasının nümayəndə heyətini ölkəsində görməkdən məmnunluğunu ifadə edən Dimitar Kovaçevski Şimali Makedoniyanın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib. O, iki ölkənin rəsmilərinin müxtəlif səviyyələrdə keçirilən görüşlərində əməkdaşlıq imkanlarının dəyərləndirildiyini və önəmli təşəbbüslərin irəli sürüldüyünü diqqətə çatdırıb. Baş nazir Şimali Makedoniya ilə Azərbaycan arasında ayrı-ayrı sahələrdə işbirliyinin dərinləşdirilməsi üçün geniş potensialın mövcudluğunu diqqətə çatdırıb, ikitərəfli əlaqələrin inkişafı ilə əlaqədar ardıcıl addımlar atılmasının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında önəmli rol oynadığını söyləyib, bu sahədə tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinin önəmini nəzərə çatdırıb.

Dimitar Kovaçevski Şimali Makedoniya və Azərbaycanın ayrı-ayrı qurumları, o cümlədən siyasi partiyaları arasında davamlı əməkdaşlığın da vacib olduğunu bildirib.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov səmimi qəbula və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O, Azərbaycan ilə Şimali Makedoniya arasındakı əlaqələrin milli maraqlara əsaslandığını bildirib, dövlətlərarası münasibətlərin inkişafı üçün mühüm potensialın olduğunu diqqətə çatdırıb. YAP Sədrinin müavini Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan strateji əhəmiyyətli layihələrin Avropanın enerji təhlükəsizliyinə töhfə olduğunu vurğulayıb. Azərbaycanın enerji siyasətində təbii qaz təchizatı mənbələrinin şaxələndirilməsinin mühüm yer tutduğunu diqqətə çatdıran Tahir Budaqov Şimali Makedoniyanın XXI əsrin layihəsi kimi xarakterizə edilən "Cənub qaz dəhlizi"ndə iştirakının iki ölkə arasında əlaqələrin çoxşaxəli tərəfdaşlıq platformasında möhkəmlənməsinə geniş imkanlar yaradacağını deyib. Tahir Budaqov inam və etimada əsaslanan qarşılıqlı faydalı münasibətlərin, genişmiqyaslı işbirliyinin istər Azərbaycan, istərsə də dost və tərəfdaş ölkələr üçün faydalı və perspektivli olduğunu söyləyib.

YAP Sədrinin müavini gələn il ATƏT-ə sədrlik edəcək Şimali Makedoniyaya uğurlar arzulayıb və qurumun Azərbaycan-Ermənistan münasibətlərinə obyektiv və ədalətli yanaşacağına ümidvar olduğunu bildirib.

Tahir Budaqov Azərbaycan ilə Şimali Makedoniyanın siyasi təsisatları arasında əməkdaşlığın əhəmiyyətini də nəzərə çatdırıb. O, geniş beynəlxalq əlaqələrə malik olan YAP ilə Şimali Makedoniya Türk Demokratik Partiyası arasında işbirliyinin dərinləşdirilməsinin dövlətlərarası münasibətlərin inkişafı üçün xüsusi önəm kəsb etdiyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Azərbaycan-Şimali Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, YAP İdarə Heyətinin üzvü Musa Quliyev, Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli daxildirlər.

Azərbaycan.- 2022.-23 dekabr.- S.8.